# ÖTƏN GÜNDƏN ƏMƏL QALIR, SÖZ QALIR...

*Kamal Talıbzadənin xatirəsinə*

Hamlet İSAXANLI

Kamal Talıbzadəni əvvəllər uzaqdan-uzağa tanıyırdım - görkəmli tənqidçi və ədəbiyyatşünas alimimiz kimi; Abbas Səhhətin yaradıcılığı, xüsusilə də onun poetik tərcümə sahəsindəki fəaliyyəti barədə əsas məlumatı mən Kamal müəllimin ədəbiyyatçılara yaxşı bəlli olan əsərindən almışdım. Eyni zamanda, bilirdim ki, Kamal Talıbzadə Azərbaycan romantik ədəbiyyatının və uşaq ədəbiyyatımızın klassiki, böyük maarifçi Abdulla Şaiqin oğludur. Son yeddi-səkkiz ildə isə, mən fəxrlə deyirəm ki, biz onunla yaxın dost olduq. Bu dostluq mənim həyatıma zərif bir işıq gətirdi, göz qamaşdırmayan, adama rahatlıq və mehribanlıq bəxş edən, soyuq ab-havanı isidə bilən bir işıq.

Kiçik dostu kimi onu şəxsən tanıyandan sonra və onun köhnə ziyalılara xas olan gözəl xətt ilə yazıb mənə bağışladığı ikicildlik seçilmiş əsərlərinin mühüm hissəsini oxuduqdan sonra Kamal müəllim mənim əzizim və müəllimim oldu. Rəfiqə xanımla bərabər tez-tez bizə gəldilər, biz onlara getdik, Abdulla Şaiq muzeyində görüşdük, bir sıra məclislərə bərabər qatıldıq. Əminəm ki, bu dostluqda bir böyük-kiçik məhəbbəti vardı, yəqin ki, bu həm də ikitərəfli ehtiyacdan doğurdu.

Heç şübhəsiz ki, Azərbaycan Romantizmini tədqiq edənlər, Abbas Səhhəti öyrənmək istəyənlər, ədəbi tənqidimizin tarixini araşdırmaq və tənqidşünaslığın nəzəri əsaslarına yiyələnmək fikrində ciddi olanlar Kamal Talıbzadənin yaradıcılığından xeyli bəhrələnəcəklər, daha doğrusu, ondan yan keçə bilməyəcəklər! Elm adamının sözdə deyil, doğrudan-doğruya böyüklüyünün əsas əlaməti bu deyilmi?

Bir dəfə mən: "Kamal müəllim, hal-hazırda tənqidşünaslıq varmı? Mən bir qədər kənardan baxıram, səhv edə bilərəm, ancaq məncə indiki tənqidşünaslar əsasən bəlağətli təriflə məşğuldurlar, yəni tənqidşünas deyil, tərifşünasdırlar



*İçərişəhərdə*

(istisnalar varsa, onlarla işim yoxdur)" deyə onun fikrini öyrənmək istədim. O, adəti üzrə, gözündə oynayan və bütün sifətini işıqlandıran mehriban təbəssümlə "zəmanə dəyişəndə tənqid də dəyişir, ümumiyyətlə, düz deyirsən, indi ciddi ədəbi tənqidlə məşğul olanlar çox az qalıb" -dedi. Bir az susub təkrar etdi: "zəmanə dəyişib..." Mən sözü zarafata çevirdim:

*Tərifşünas olub tənqidşünaslar,*
*Ürəyə,... çörəyə bunun xeyri var.*

Kamal müəllim zarafata zarafatla deyil, ciddi münasibətlə cavab verdi: "Deyəsən tək çörəyə görə deyil; sadəcə, tənqid çox zaman (indi az qala həmişə) xoşniyyətli, tərifəmeyllі təhlillə əvəz olunur - mən bu barədə əvvəllər yazmışam"

Müsahibinə xoş görünsün deyə "hə" deyib onun fikrini təsdiqləmək kimi çoxlarına xas olan xasiyyət gerçək tənqidi düşüncə sahibi olan bu insana yad idi. Kamal müəllimin müstəqil düşüncəsini ortaya qoyan bir əlamət də onun ədəbiyyatşünaslıqda mövcud olan dəblərə uymaması idi. O, novatorluqla ənənəviliyi vəhdətdə, bir-birinə qovuşuq şəkildə, bütövün hissəsi kimi görüb tətbiq edə bilirdi. Görünür ki, uşaq vaxtından bədii deyil, tənqidi düşüncəyə meylli olduğu üçün o, yazıçı olmadı, yəni sənətdə atasının yolunu birbaşa davam etdirmədi, bunun əvəzində elmlə, ədəbiyyatşünaslıqla məşğul olmağı üstün tutdu, bu yolda uğur qazandı. Bəlkə də, Abdulla Şaiq özü, bilərəkdən və ya bilmədən, Kamalı belə tərbiyə etmişdi, nəticə etibarilə oğlunu elmə yönəltmişdi.

Kamal müəllimlə tez-tez poeziyadan söhbət edirdik. Mövzularımız əsasən 20-ci əsrin birinci yarısı Azərbaycan poeziyası - Sabir, Səməd Vurğun, Mikayıl Müşfiq və



**Bizim evdə**

türk poeziyası nümayəndələri - Yahya Kemal, Faruk Nafiz, Nazim Hikmet, Orhan Veli olurdu. Mən bu şairlərin yaradıcılığından nümunələr oxuyurdum, Kamal müəllim sakit qulaq asır, hərdən-hərdən replikalarla fikrini bildirirdi. Arada mən dayanıb ona konkret suallar verirdim, cavablar həmişə qısa və həmişə maraqlı olurdu. Bəzən fikirlərimiz düz gəlmirdi; bu halda Kamal müəllim daha fəal mövqe alır, mən isə replikalara keçirdim. Mənim əziz həmsöhbətim klassiklərimizin də, S.Vurğun kimi böyük şair və yaxın qohumun yaradıcılığına da yad gözlə və bitərəf kimi yanaşa bilirdi, bu təbii ki, onun geniş savadı, dünyagörüşü və yüksək peşəkarlığı ilə izah olunur.

Kamal müəllim mənim "Təzadlar" adlı şeir kitabımı oxumuşdu, "Bu da bir həyatdı" adlı digər şeir kitabımı diqqətlə oxuya bilmədi, vaxt da imkan vermədi. Hərdən mənə öz şeirlərimi oxutdurur, nədənsə gözü dolur, məni qucaqlayırdı. Mən onun tənqidçi kimi münasibətini bilmək istəsəm də, tənqidi heç nə demədi, sadəcə "şeirlərini həmişə oxuyuram, evdə başımın üstündədir" deyirdi. Rəfiqə xanım "səni çox sevir" deyə mənə və mehriban nəzərlərlə Kamal müəllimə baxırdı. Bu sözlər və baxışlar, daha çox Rəfiqə xanımın öz həyat yoldaşına olan məhəbbətini

nümayiş etdirirdi. Bu zərif məhəbbətin qarşılıqlı olması böyük müşahidəçilik tələb etmirdi, göz qabağında idi. Kamal müəllim Rəfiqə xanım barədə çox ləzzətlə onun öz yanında (həm öz evlərində, həm də bizim evdə) mənə və bizim Nailə xanıma şirin-şirin danışar, söhbətini incə zarafatlarla güllədirərdi. Onların münasibəti təkcə uzun illərin təbii yolla gətirdiyi hörmətlə izah olunmurdu, bu, uzun illərin qoruduğu və mənalandırdığı sevgi idi; uzun illər bu sevgini daha güvənli, daha rahat etmişdi. Cavanlığa xas olan, xəyalımızın da bəzədiyi ilahi sevgini, demək olar ki, həmişə coşğunluq, şıltaqlıq və qısqanclıq müşayiət edir; narahatlıq, eniş-yoxuş, ahəngi pozan taqqıltı bu sevginin yol yoldaşıdır. Lakin zaman keçdikcə, yaşa dolduqca qarşılıqlı anlaşma məhəbbəti göylərdən yerə endirir, xırdalıqlara fikir verməmək, güzəştə getmək asanlaşır, savaşa həvəs azalır (hərçənd ki, bu mütləq deyil... ömürlük savaşın hökm sürdüyü ailə həyatına da rast gəlinir).

***Dünəni yaşadım, dünəndə bitdi,***
***Uşaqlıq qayğılar dinəndə bitdi.***
***Qısqanclıq, çılğınlıq dolu səhnələr***
***Ömrümüz payıza dönəndə bitdi.***

Kamal müəllimin və Rəfiqə xanımın məhəbbəti sanki efirdə sevgi dalğası yaradır, onlarla ünsiyyətdə olanlara da sirayət edirdi.

Kamal Talıbzadənin daha bir xüsusiyyəti mənə və məncə onu tanıyanların böyük əksəriyyətinə xoş gəlirdi - bu, onun atasına, Abdulla Şaiqə olan çox böyük ehtiramı və məhəbbəti idi. Əslində insanın valideynlərinə, baba və nənəsinə sevgisində, onların xatirəsini əzizləməsində qeyri-adi bir şey yoxdur, bu təbiidir və təəccüb doğura bilməz. Bu, bir növ övlad minnətdarlığı və borcudur; elə görünür ki, bunu insanı müsbət cəhətdən səciyyələndirən mühüm məqam kimi qələmə verməyə ehtiyac yoxdur. Digər tərəfdən, cəmiyyətdə doğrudan da çox sevilən, çox istedadlı və xalq yolunda böyük zəhmət çəkmiş xeyirxah insanların xatirəsi öz övladları tərəfindən əziz tutulursa, öz övlad borcunu yerinə yetirən insan həm də cəmiyyətin minnətdarlığını qazanmış olur. Sanki cəmiyyət borclu olduğu böyük şəxsiyyətə öz ehtiramını daima ifadə etmək üçün onun övladını vəkil seçib, övlad da böyük məmnuniyyətlə bu işi öz öhdəsinə götürüb.

Kamal müəllimin atasına məhəbbəti onun maarifçiliyə, romantizmə, yazıçılığa, humanizmə və əlbəttə ki, keşmişimizə olan diqqəti, hörməti və sevgisi ilə də birbaşa bağlı idi. Kamal müəllim Abdulla Şaiqin Mənzil Muzeyində mənə ləzzətlə bələdçilik edərkən onun bütövlükdə keçmişə necə həssas yanaşdığının bir daha şahidi olmuşam; o, ata tərəfdən babası Axund Mustafa, əmisi Axund Yusif haqqında necə böyük məhəbbət və hörmətlə danışırdı! Kamal müəllim atasının həyatı, fəaliyyəti, ədəbi irsi ilə əlaqəsi olan hər kəsə qayğı və minnətdarlıqla yanaşırdı - Mənzil Muzeyin işçilərinə də, sözləri A.Şaiqə məxsus mahnını ifa edən müğənniyə də, atasının adını daşıyan məktəbə də, A.Şaiq yaradıcılığına maraq göstərənlərə də... Və, eyni zamanda, həqiqətin təhrif olunmasına qəti yol vermirdi!

Abdulla Şaiq öz sağlığında xalq içində ipək təbiətli ziyalı, yazıçı və sözün geniş mənasında böyük müəllim kimi şöhrətlənmişdi, o, adına uyğun şövqlə çalışmış, ətrafa maarif və insaniyyət nuru saçmışdı. Kamal müəllim bir tərəfdən Şaiqin varisi və yadigarı kimi, Şaiqdən sonra

Şaiq evinin başçısı kimi, digər tərəfdən isə Şaiqin sözündən və parlaq surətindən nur alan bizlərdən biri kimi Abdulla Şaiq xatirəsini ürəyinə yazmışdı. Və Kamal müəllim heç zaman Abdulla Şaiqi olduğundan artıq təqdim etməyə, qeyri-adi bəzək vurmağa razı olmadı; bunun birinci səbəbi, yuxarıda qeyd etdiyim kimi, kimdən, nədən söhbət getdiyindən asılı olmayaraq onun bitərəf avropasayağı alim mövqeyini ortaya qoymasında idi (antiavropaçılar, məni bağışlamaq olarmı?). İkinci səbəb isə A. Şaiqin artıq olduğu kimi görünərkən kifayət qədər böyük şəxsiyyət olması və (bu xüsusi qeyd olunmalıdır) uşaqdan böyüyə ədəbiyyat sevənlər, ziyalılar tərəfindən sevilməsidir, yəni onun əlavə bəzəyə ehtiyacı yoxdur, artıq bəzək onun saf hüsnünə xələl gətirərdi.

(Bir qeyri-lirik haşiyə, kənaraçıxma... Bu, yenicə səslənmiş fikirlərimizdə duman varsa onu dağıtmaq üçündür... Kifayət qədər tanınmış valideynin övlad tərəfindən ictimaiyyətə yenidən təqdim olunmasından söhbət gedirsə, bəzən etik normaların pozulması halları mümkündür. Övladın tutduğu ictimai vəziyyət və ya dövlət vəzifəsindən sui-istifadə edərək valideynini başqalarından daha yaxşı, daha böyük, çox böyük insan kimi göstərmək, onun xidmətlərini şişirtmək və bunu bir sistemə çevirmək cəhdi ətrafdakı insanlarda təəssüf və etiraz hissləri doğurur, bəzi tez təsirlənən, həyəcanlı insanları isə hətta hiddətləndirir. Bu güclü etirazın əsas səbəbi cəmiyyətin düşünən qisminin kimin kim olduğunu dərk etməsidir, dünyanı başa düşənlər kiminsə "ağ etməyini", məlum olanı süni surətdə dəyişmək, başqa donda vermək cəhdini özlərinə qarşı sayğısızlıq, hətta zorakılıq hesab edirlər).



*Ülkər sevdiyi Kamal müəllim və Rəfiqə xanımla*

Son illər ailəmizdə xoş bir məclis, mərasim və ya görüş nəzərdə tutulan kimi Kamal müəllimi yada salır, Rəfiqə xanımla bərabər onu dəvət edir, onun ağsaqqallıq etməsini istəyirdik. O da, xəstə deyilsə, bu dəvəti məmnuniyyətlə qəbul edir, bizi də, uşaqlarımızı da, qonaqları da öz məlahəti ilə sevindirirdi. Kiçik qızım Ülkərdən çox xoşu gəlirdi, onunla söhbət edir, zarafatlaşır, yeri düşəndə rəqs edirdi.

1999-cu ilin aprel ayı idi. Görkəmli filosof professor Camal Mustafayevin bir sıra elmi əsərləri və ədəbi-mədəni irsimizlə bağlı məqalələrindən ibarət "İdrakın şeriyyəti" kitabı yenicə nəşr olunmuşdu. Kitabın ilk təqdimatını ata-baba yurdumuzda, Gürcüstanda, Qarayazının Kosalı kəndində keçirməyi qərara aldıq. "Kamal müəllim, çox istəyirik ki, siz də bizimlə gedəsiniz" dedik və həmin an da bizi sevindirən cavab aldıq: "Siz heç bilirsiniz ki, mən nə qədər sevindim?! Burnumun ucu göynəyir oralardan ötəri. Özü də Camal müəllimlə, sizlərlə bir yerdə getmək! Haamlet, ( O, mənə belə müraciət edirdi, birinci hecanı xeyli uzadaraq, sanki həzz ala-ala ), ayy səni sağ olasan!"

Bir neçə maşınla yola düşdük. Bakıdan kəndə qədər yolda, eləcə də geri



*Aygün və Jamie Kamal müəllimlə*

gələndə hamımız Kamal müəllimlə yol yoldaşlığının nəşəsi ilə yaşadıq. O, diqqət mərkəzində idi və bu, təkcə onun ağsaqqallığından irəli gəlmirdi. Kamal müəllim səfər boyu nə qədər səmimi, zarafatcıl, gəncsayaq və eyni zamanda qayğıkeş idi... Xatirə xatirə arxasınca gəlirdi, yazıçı və şairlər haqqında və gəncliklə bağlı, şux sevgi xatirələri...

Kamal müəllim elə bil bizim kənddə doğulmuşdu. Ona yaxınlaşıb hal-əhval tutanlar, ona sual verənlər, bərabər şəkil çəkdirmək istəyənlər... Səfərin əsas məqsədi Camal müəllimin kitabının təqdimatı və onun kənd camaatı və ziyalılarla görüşü olsa da, Camal müəllim ağsaqqallığı Kamal müəllimə vermişdi, həmişə onu irəli çəkirdi.

Birinci gecə Camal müəllim əziz dostu Kamal müəllimi başqa yerə buraxmadı, öz ata evində saxladı. Səhər-səhər mən ora getdim və qonaqlarımızı qohumum Qurban kişinin evində xəngələ dəvət etdim. Camal müəllim adəti üzrə yemək məsələsindən geri çəkildi, amma Kamal müəllim bizimlə bərabər xəngəl məclisinə qatıldı... nə qatıldı! Bəlkə də xəngəldən mən heç vaxt belə ləzzət almamışdım. Onu sevdirən, onun cazibə gücünü müəyyən edən cəhətlərdən biri də Kamal müəllimin uşaq kimi sevinmək qabiliyyəti idi. Bu səfərdə əziz qonağımız sanki cavanlaşmış, göylərdə uçurdu, həyatın hər ləzzətini duymaq, dadmaq istəyirdi, sanki heç kimdən geri qalmamağa söz vermişdi.

Bəzən idmandan, xüsusilə futboldan söhbət açırdıq. O, mənim vaxtaşırı futbol oynadığımı bilirdi. Mənə vaxtilə qolunun necə güclü olduğundan, yeniyetmə vaxtı evdə dəmir çubuqdan xüsusi turnik düzəldib qolu gücləndirən hərəkətlər etdiyindən ləzzətlə danışardı. "Haamlet, mən də futbolçu olmuşam ha! Bilirsən mən necə güclü qapıçı idim". Mən bir az zarafatla "Kamal müəllim, axı qapıçı üçün boy mühümdür..." deyəndə o, həmişəki mehribanlıqla, amma bir futbol məşqçisi həvəskara başa salan tərzdə mənə fikrini əsaslandırdı: "Düzdür, qapıçıya boy lazımdır, lakin cəldlik, topun hərəkətini duyma qabiliyyəti və yaxşı tullanmaq daha vacibdir. Bilirsən mən necə tullanırdım?!"

Sevdiyimiz insanlar haqqında keçmiş zamanda danışmaq ürək ağrısıdır. Öz istedadı və cəmiyyətə verdiyi töhfələrlə, humanizmi və məlahəti ilə ürəkləri fəth etmiş tanışlarımızdan cismani ayrıldıqdan sonra nəsibimiz onları xatirələrdə yaşatmaqdır. Heç bir rəssamın yarada bilməyəcəyi o gülümsər baxış, o mehriban sifət ürəyimə həkk olunub, gözlərimin önündən çəkilmir. Onun əvvəllər canıma yağ kimi yayılan, "Haamlet" deyən səsi də mənimlədir, heç dəyişməyib.

Kamal müəllimin dəyərli tədqiqat əsərləri və ürəklərdə yaşayan xoş çöhrəsi, əminəm ki, uzun ömürlü olacaq.

***Gələn-gedən təbiətdə iz salır,***
***Olub-keçən kitablara düşəcək.***
***Ötən gündən əməl qalır, söz qalır,***
***Tarix qocaldıqca zənginləşəcək...***

* * *